2025.- 18 sentyabr, №167.- S.8.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir




# Üzeyirdən gələn səs!

## Xalqımızın yaddaşında yaşayan milli musiqimiz...

Musiqi hər bir xalqın mədəniyyətində təkcə sənət növü deyil, həm də milli yaddaşın, kimliyin və ruhun daşıyıcısıdır. Azərbaycan xalqı üçün isə musiqi yüzilliklərin dərinliyindən gələn, sazın səsi ilə ürəklərə hopan, muğamın ahəngi ilə düşüncələri qanadlandıran müqəddəs bir mirasdır. Sentyabrın 18-i dahi bəstəkar Üzeyir Hacıbəyovun doğum günü, həmçinin Azərbaycanda Milli Musiqi Günü kimi qeyd olunur. Bu gün təkcə bir bəstəkarın xatirəsi deyil, bir xalqın musiqi ilə var olmaq haqqında bayramıdır.

Azərbaycan musiqisi tarın, kamançanın, balabanın ahəngində əsrlərlə yoğrulan bir tale dastanıdır. Muğamımızın hər bir səfi qəmlə gülüşün, ayrılıqla qovuşmanın və bir xalqın illər boyu çəkdiyi ağrıların səsidir. Musiqi ilə sevinmiş, musiqi ilə yas tutmuşuq. Toyda da, döyüşdə də, ayrılıqda da, qələbədə də bir melodiya dilimizdən düşməyib.

Bütün bu musiqi sərvətinin zirvəsində Üzeyir Hacıbəyov dayanır. O, “Koroğlu” kimi bir qəhrəmanlıq simfoniyası yaratdı, “Leyli və Məcnun” kimi bir eşq dastanını səhnəyə daşıdı. Onun əsərlərində biz varıq - keçmişimiz, bu günümüz, gələcəyimiz. Üzeyir bəyin notları bu torpağın ruhuna hopub, sanki Xəzərin dalğaları ilə ahəngdardır, Qarabağın dağları ilə səsləşir.

Milli Musiqi Günü həm də Azərbaycan musiqisinin digər korifeylərinin - Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin, Arif Məlikovun və bir çoxlarının yaratdıqları zəngin irsin təbliği üçün mühüm bir platformadır. Bu gün ölkənin müxtəlif guşələrində konsertlər keçirilir, musiqi məktəblərində tədbirlər təşkil olunur, gənc ifaçılar klassik əsərləri səsləndirməklə ustad sənətkarlara ehtiramlarını bildirirlər.

Bütün bunlarla yanaşı, Milli Musiqi Günü təkcə keçmişə boylanmaq deyil, həm də gələcəyə baxmaq fürsətidir. Gənc nəslin musiqiyə olan marağını artırmaq, milli musiqini müasir üslubda təqdim etmək və dünyaya tanıtmaq bu günün qarşıya qoyduğu əsas məqsədlərdəndir. Bu gün dövlət səviyyəsində milli mədəniyyətə, xüsusilə də musiqiyə böyük dəyər verilir. Azərbaycan musiqisi təkcə tarixi keçmişə söykənmir, həm də dövlətin diqqəti sayəsində müasir dövrdə öz inkişafını davam etdirir. Dövlətimiz musiqimizi qoruyur, inkişaf etdirir və gələcək nəsillərə ötürmək üçün əlindən gələni edir.

Nə qədər ki, muğam oxunur, tar səslənir, nə qədər ki, bir uşaq fortepianoda Üzeyir bəyin əsərlərini ifa edir, deməli, milli musiqimiz yaşayır. Milli Musiqi Günü bizi sadəcə musiqiyə deyil, özümüzə qaytarır. Kim olduğumuzu, haradan gəldiyimizi, necə direniş göstərdiyimizi xatırladır.

Musiqimiz susmur, çünki xalqın özü danışır bu səsdə. Bu gün başımızı bir az da dik tuturuq. Çünki musiqimiz yaşayır, yenilənir, dünyanı dolaşır. Gənc bəstəkarlar, muğam ifaçıları, caz ustaları Azərbaycan adını not-not, səhnə-səhnə tanıdır.

*Yeganə BAYRAMOVA*